AzQAC Rəyasət Heyətinin
19 dekabr 2014-cü il tarixli
qərarı ilə təsdiq olunmuşdur.
Protokol №1

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti**
**İNFORMASİYA-KOMUNİKASİYA VƏ**
**SOSİAL MEDİYA SİYASƏTİ**

| **Sənədin müəllifləri və təsdiqi** | | | | |
|---|---|---|---|---|
| **Maraqlı tərəf** | **Ad** | **Vəzifə** | **İmza** | **Təsdiq olunma tarixi** |
| Müəlliflər | Qafar Əsgərzadə<br><br>Bayram Vəliyev<br><br>Şaban Şayev<br><br>Seymur Hümbətov | Vitse-prezident.<br><br>İcraçı Katib.<br><br>İcraçı Katibin müavini<br><br>İnformasiya və Beynəlxlaq Əlaqələr Şöbəsinin müdiri | | 19.12.2014 |
| Sənədə icazə verən | Dr. Novruz Aslanov | Cəmiyyətin Prezidenti, Rəyasət Heyətinin sədri | | 19.12.2014 |

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Informasiya, Kommunikasiya və Sosial Mediya siyasəti (təlimatı)**

**Giriş. Məqsəd.**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) 2011-2015-ci illər üçün olan Strateji Planına əsasən, həmçinin ictimai fəaliyyətlərinin kütləviliyini rəhbər tutaraq özünün İnformasiya, Komunikasiya və Sosial Mediya siyasətini tərtib etməyə qərar vermişdir. Belə ki, Cəmiyyətin 2011-2015 Strateji Planında 4-cü strateji məqsəddə deyilmişdir: Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli bölmələrinin, o cümlədən Naxçıvan Muxtar Respublikası Komitəsi, Gənclər Komitəsi, Regional Mərkəzlər, şəhər, rayon və sahə bölmələrinin (ilk təşkilatların) fəaliyyətlərini təkmilləşdirmək və bununla daha effektiv, keyfiyyətli, yerli ehtiyaclara cavab verən xidmətlər göstəriləcəkdir. Bu strateji məqsəddən irəli gələn iki vəzifə: **Vəzifə 3** – Beynəlxalq Humanitar Hüququn əsasları və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQXQAH), Qızıl Xaç və Qızıl Aypara (QX/QA) emblemlərindən duzgün istifadə edilmənin, BQXQAH-nın Fundamental Prinsiplərinin yayımı və **Vəzifə 4** – Komunikasiya strategiyasının qurulması və bölmələr səviyyəsində işlənib icra olunması, AzQAC-in nüfuzunun artırılması kimi vəzifələr Cəmiyyət qarşısında durmuşdur. Bu kimi öhdəliklər AzQAC-nin Baş Qərargahı və yerli infrastrukturu arasında komunikasiya (əlaqə) və informasiya texnologiyaları sahəsində tərəqqini irəli aparacaq, qlobal aləmlə həmin istiqamətdə düzgün informasiya mübadiləsi və əlaqələr yaratmağın, innovativ və interaktiv vasitə kimi sosial mediyanın istifadəsi və Cəmiyyət daxili inkişafına kömək edəcək.

Bu Siyasət (təlimat) işçi heyəti (işçilər, yerli işçi heyəti, (gələcəkdə beynəlxalq səviyyədə çalışacaq işçi heyəti) müvəqqəti işçilər) və qeyri işçilər (könüllülər, üzvlər) ibarət fərdləri özündə birləşdirən bütün personal tərəfindən tətbiq olunmaq üçün işlədilir.

Bu siyasət AzQAC-nin QX/QA emblemlərinin ölkə daxilində qorunması, BQXQAH-nın Fundamental Prinsiplərinə hörmətin artırılması, eyni zamanda dinamik İnformasiya Komunikasiya Texnologiyaları (İKT) mühitində nüfuzumuza qarşı ola bilən riskləri minimuma endirmək üçün qaydalar və təlimatların gərəkliliyini tənzimləyir.

AzQAC-nin bu siyasəti Cəmiyyətin Baş Qərargahı, Komitələri, Regional Mərkəzləri, yerli bölmələri, sahə bölmələri, ilk təşkilatları, əməkdaşları, üzvləri və könüllülərinin quruma aid yaradılan sosial mediya şəbəkələrindəki addımlarını və fəaliyyətlərini tənzimləyir. Həmçinin siyasət AzQAC-nin və bütövlükdə BQXQAH-nın nüfuzunun və hörmətinin ölkə ərazisindəki kütləvi informasiya vasitələrində, nəşriyyatda və s.-də mühafizə etmə mexanizmidir. Siyasətin həyata keçirilməsi üzrə bütün suallar AzQAC-nin İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinə yönəldilməlidir.

Bu siyasət Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQXQACF) sosial mediya siyasətində göstərilən bütün şərtləri qəbul edir və həmin qaydalara əməl olunmanı tələb edir (həmin siyasəti BQXQACF-nın fednet səhifəsində qeydiyyatdan keçərək əldə edib oxuya bilərsiz).

## 1. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İnformasiya üzrə fəaliyyət təlimatları

1. AzQAC-nin ölkə ərazisindəki bütün istiqamətlərdə və ərazilərdə (Baş Qərargah və ya yerli infrastruktur) həyata keçirdiyi fəaliyyətlər (yerli və beynəlxalq səviyyədə humanitar əməliyyatlar, rəsmi görüşlər və s.) haqqında məlumatlar yalnız 1 dolğun mənbədən (İnformasiya və Beynəlxalq Əlaqələr Şöbəsi) ictimaiyyətə, Kütləvi İnformasiya Vasitələrinə (KİV), İKT xəbər portallarına, AzQAC-nin "Yeni Təfəkkür" qəzetinə, rəsmi internet səhifəsinə və rəsmi sosial şəbəkələrdəki səhifələrində yayımlanır (həmin məlumat bölgələrdə həyata keçirilibsə və həmin AzQAC infrastrukturunun özünün sosial şəbəkələrdə rəsmi səhifəsi, qəzeti və s. varsa və ya həmin məlumatı yerli KİV-də işıqlandırmaq istəyirsə yenə də məlumat Baş Qərargahın İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən yekun təsdiqlənən vahid məlumat olmalıdır);
2. AzQAC-nin rəsmi internet səhifəsi BQXQAH-nın Vahidlik prinsipinə uyğun olaraq Respublikada yeganədir və bu prinsipə əsasən tənzimlənir (Cəmiyyətin heç bir digər infrastrukturlarına özünün rəsmi internet səhifəsinin yaradılmasına icazə verilmir);
3. Fövqəladə hallar zamanı (beynəlxalq müharibə, daxili silahlı münaqişə, təbii fəlakətlər, epidemiya və s.) həyata keçirilən humanitar əməliyyatlar, faktlar, göstəricilər, statistik rəqəmlər, miqrantların sayı, yaralıların sayı, sosial durum və s. haqqında informasiya təhlükəsizliyinə ciddi riayət etmək məqsədilə əsas məlumat yalnız 1 mənbədən - AzQAC-nin prezidenti (O olmadığı təqdirdə İcraçı Katibi, İcraçı Katib də olmadığı təqdirdə İnformasiya və Beynəlxalq

Əlaqələr şöbəsinin müdiri) tərəfindən KİV nümayəndələrinə və geniş ictimaiyyətə verilə bilər;

4. Bir təşkilat kimi biz faydalı əlaqələr qurmaq, Fundamental Prinsiplərimizi və humanitar dəyərlərimizi irəli çəkmək, humanitar əməliyyatların sayını çoxaltmaq və bunun üçün təbliğat-təşviqat və fundraisinq (fondların artırılması) aksiyalarını təşkil etmək və son nəticədə brendimizi gücləndirmək və humanitar vəzifələrimizə kömək etmək üçün daim həmin informasiya və texnologiyaları tətbiq edirik.

## 2. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Komunikasiya üzrə fəaliyyət təlimatları

1. AzQAC-nin infrastrukturu arasında komunikasiya üsulları qurumun strukturunda qeyd olunan subordinasiyaya uyğun şəkildə həyata keçirilir. İlk Təşkilatlar sahə və ya şəhər/rayon bölmələri ilə, sahə, şəhər/rayon bölmələri Regional Mərkəzlərlə, Regional Mərkəzlər isə Baş Qərargahla komunikasiyanı təşkil edir. AzQAC Naxçıvan MR Komitəsinə daxil olan şəhər və rayon bölmələri Komitə vasitəsilə Baş Qərargahla komunikasiyanı təşkil edir. Gənclər Komitəsi birbaşa olaraq Baş Qərargahla (Ali Rəhbərliklə) komunikasiyanı qurur. Müstəsna hallarda, fors majorda bütün qurumlar birbaşa olaraq Baş Qərargahla komunikasiyanı təşkil edir (yalnız hər hansı bir fəaliyyətdən sonra yerli infrastruktur tərəfindən informasiya xarakterli məqalələr və s. AzQAC qəzetində, rəsmi internet səhifəsində və s. KİV-də işıqlandırılmaq üçün birbaşa bölmə tərəfindən Baş Qərargahdakı İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsi ilə komunikasiya qurur);
2. AzQAC-nin infrastrukturu arasında komunikasiya məktublaşma, faks, elektron poçt, skype, sosial şəbəkələrdə yaradılmış qruplar və s. buna bənzər internet və komunikasiya texnologiyaları, telefon (xətli və mobil) və mobil radiodalğalı ötürücü qurğular (rasiya) vasitəsilə həyata keçirilir;
3. AzQAC-nin infrastrukturu humanitar məqsədlərlə fundraising (fondların artırılması) və maliyyə mənbələrinin çoxaldılması kampaniyaları, aksiyaları, fəaliyyətlərini həyata keçirmək üçün bütün növ komunikasiya vasitələrindən istifadə edə bilər (rəsmi görüşlər, qəbullar, KİV-də məlumatların verilməsi və s.). Lakin bütün bu əməliyyatlar BQXQAH-nın Fundamental Prinsipləri çərçivəsində həyata keçirilməlidir.

## 3. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sosial mediya üzrə fəaliyyət təlimatları

1. AzQAC-nin sosial şəbəkələrdəki səhifələri ilk növbədə əlaqələr qurmaq, könüllülərin və üzvlərin sayını artırmaq məqsədilə cəlbedici təşviqat kampaniyası formalaşdırmaq, tərəflər arasında vaxtlı-vaxtında müvafiq informasiya mübadiləsi etmək üçün çoxtərəfli ictimai kommunikasiya kanallarıdır. AzQAC-nin bütün infrastrukturu öz yerli humanitar missiyasının ictimaiyyətə və dünyaya təqdim olunması, könüllülərin və üzvlərin sayının artırılması, gəlirgətirmə və fundraising kampaniyalarının təşkil olunması, ehtiyaclı insanlarla dialoq və qarşılıqlı əlaqəyə girmək və s. məqsədlərlə sosial mediya səhifələrində yerli AzQAC rəsmi səhifələrini yaratmaqda maraqlı olduqları halda qurumun İnformasiya və Beynəlxalq Əlaqələr Şöbəsi ilə əlaqə saxlamalı istəklərinin və təşəbbüslərinin düzgün istiqamətdə formalaşması üçün tövsiyyə və icazə almalıdır;
2. AzQAC-nin Baş Qərargahı və bütün yerli infrastrukturu sosial şəbəkələrdə rəsmi səhifələr yarada bilər. Həmin sosial şəbəkələrdə verilən məlumatlar yalnız Milli Cəmiyyətin fəaliyyətlərini əks etdirən məlumatları yaymalıdır. Həmin səhifələrə admin olan AzQAC əməkdaşları, üzvləri və ya könüllüləri həmin səhifələrdə fərdi məlumatları, öz şəxsi həyatlarına, siyasi baxışlarına, sosial durumlarına, dini və irqi məxsusluğuna və s. aid olan məlumatları yaymamalıdırlar. Həmin səhifələr BQXQAH-nın Fundamental Prinsiplərinə uyğun şəkildə idarə olunmalıdır. Hər hansı bir fərdi baxışlara aid olan məlumatların AzQAC-nin sosial şəbəkələrdə mövcud olan rəsmi səhifələrində verilməsi qəti qadağandır;
3. AzQAC həyata keçirdiyi bütün fəaliyyətlər haqqında məlumatların BQXQAH-nın digər tərkib hissələrinin kütləvi informasiya vasitələrində işıqlandıra bilər (Baş Qərargahın İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin təsdiqindən sonra);
4. AzQAC özünün sosial şəbəkələrdə olan səhifələri (həmçinin ayrı-ayrılıqda yerli infrastrukturun yaratdığı və idarəetdiyi səhifələr) vasitəsilə Milli Cəmiyyətə aid olan məlumatları geniş ictimaiyyətə təqdim edə bilər (İnformasiya və Beynəlxalq Əlaqələr Şöbəsinin tövsiyyəsindən sonra);
5. AzQAC-nin sosial mediya profillərində Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə yalnız Milli Cəmiyyətə aid olan rəsmi hesablarla

məhdudlaşdırılır. Sosial şəbəkələrdə Qızıl Xaç və ya Qızıl Aypara emblemlərindən fərdi profillərdə istifadə olunma emblemlərdən sui-istifadə halı kimi qanunvericilikdə nəzərdə tutulan qaydalarla tənzimlənir;
6. AzQAC əməkdaşları, üzvləri və könüllüləri Azərbaycana aid olan sosial mediyada Qızıl Xaç və Qızıl Aypara emblemlərindən, AzQAC, BQXQACF və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) loqolarından sui-istifadə hallarını müəyyən etdikdə həmin faktı vizual olaraq Milli Cəmiyyətin İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinə, həmçinin hüquqşünaslara təqdim etməlidir;
7. AzQAC yerli infrastrukturu tərəfindən sosial şəbəkələrdə yaradılmış rəsmi səhifələrdə verilən məlumatların BQXQAH-nın Fundamental Prinsiplərinə uyğun şəkildə hazırlanması vacibdir. Məqalələr, məlumatlar və başlıqlar Azərbaycan dilinin qramatik və leksik qaydalarına uyğun olaraq yazılmalıdır.

## Pozuntular və bu pozuntulara görə cəza tədbirləri.

AzQAC-nin personalı (işçilər, yerli işçi heyəti, beynəlxalq səviyyədə gələcəkdə işləyəcək işçi heyəti, müvəqqəti işçilər) və qeyri işçilər (könüllülər, üzvlər) bu Siyasətin (təlimatın) hər hansı bir şəkildə pozulmasına görə məsuliyyət daşıyır. Pozuntulara aşağıdakılar daxildir:

- Bu Siyasətin 1.1, 1.2 və 1.3 maddələrində sadalanan müddəaların pozulması;
- 3.1, 3.2 və 3.7 maddələrində sadalanan tələbləri yerinə yetirə bilməmək və ya yerinə yetirməkdən imtina etmək;
- İşçilərin Davranış Kodeksinin pozulması da daxil olmaqla bu Siyasətin göstəriş və tələblərinin hər hansı bir şəkildə pozulması.

Yuxarıda adı çəkilən hər hansı pozuntu inzibati (disiplinar) cəza tədbiri ilə nəticələnməlidir. İnzibati (disiplinar) cəza tədbirinə ciddi hallarda vəzifədən azad etmə də daxildir.

## Hesabat vermə

Cəmiyyətin personalı cəlb olunduğu hər hansı bir onlayn söhbət, informasiya və ya vizual materialların bu Siyasətə zidd olduğunu hesab edərsə, o zaman:

- Onları visual olaraq sənədləşdirməlidirlər.
- Müvafiq gəldikdə kollektiv və fərdi şəkildə məsləhətləşməlidir.
- Yuxarıda qeyd olunan vizual sənədləşdirmə ilə birgə özlərinin xətt menecerlərinə və İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinə müraciət etməlidir. Əgər bu şöbə hesab etsə ki, bu Davranış Kodeksinin də pozulması deməkdir o zaman həmin

informasiya Kadrlar Şöbəsinə də verilməlidir. İnformasiya və Beynəlxalq Əlaqələr Şöbəsi və Cəmiyyətin hüquqşünası kontentin (məzmun) bu Siyasətin hər hansı maddəsini pozub-pozmadığını təsdiqləmək üçün məsələni araşdıra bilər və müvafiq olaraq tədbirlər görə bilər. Rəhbərlik tərəfindən icazə əldə edərək hər hansı inzibati (disiplinar) prosesə başlamaq üçün standart prosedurlara uyğun işlərə başlamaq üçün Kadrlar şöbəsinə müraciət edəcək.

**Məsuliyyətlər**

**İnformasiya və Beynəlxalq Əlaqələr Şöbəsinin məsuliyyətləri**

- Cəmiyyətin bütün işçilərinin (xüsusilə də Baş Qərargahda fəaliyyət göstərən əməkdaşlar və yerli infrastrukturun rəhbərləri) bu Siyasətdən xəbərdar olmasına və onu başa düşməsinə nail olmaq (bu işdə onlara seminarlar, təlimlər, mühazirələr vasitəsilə kömək etmək).
- Bu Siyasətdə göstərilən maddələrin icra olunmasına nəzarət və monitorinq etmək.